# Rusiyada həyatın vacib qaydaları



*Rusiya Federasiyasına gəlmiş hər bir xarici vətəndaş olduğu ölkənin qanunlarına, adət və ənənələrinə riayət etməli və onlara hörmətlə yanaşmalıdır! Bu sadalananlarla hələ Rusiyaya daxil olmazdan əvvəl tanış olmaq lazımdır.*

---

**_Bütün insanlar üçün ən əsas qayda — bir-birinə hörmətdir._**

Ölkəmizdə kimisə milli və ya dini mənsubiyyətinə görə incitmək və ya təhqir etmək yolverilməzdir. Bu, insanlarla ən əsas ünsiyyət qaydalarından biridir. Milliyyət, dil, xarici görünüş, milli vərdiş və davranış xüsusiyyətləri kimi etnik fərqliliklərindən asılı olmayaraq, bütün insanlar ümumi davranış qaydalarına riayət etməlidirlər.

Orenburq vilayətinin qonaqları yerli əhalinin həyat tərzinə hörmətlə yanaşmalı, səbirli olmalı, kobudluq etməməli, yerli mədəniyyətə qarşı təkəbbür və etinasızlıq nümayiş etdirməməli, olduqları ölkənin rəhbərlərinin ünvanına təhqiramiz ifadələrlə çıxış etməməlidirlər.

***Küçədə davranışın əsas qaydası*** – ətrafdakılara narahatlıq və xoşagəlməz hal yaratmamaqdır.

# Yerli sakinlərlə ünsiyyət

*Yerli əhali ilə uğurlu ünsiyyət yaratmaq üçün cəmiyyətdə davranışın aşağıdakı qaydalarını bilməlisiniz:*

- Tanımadığınız biriylə danışarkən ona nəzakətlə şəkildə “Siz” deyə müraciət etmək qəbul olunur.
- “Qardaş” və ya “bacı” deyərək müraciət etməyiniz qohum və ya yaxın tanışınız olmayan insanlarla ünsiyyət üçün uyğun hesab edilmir.
- Birinə müraciət edərkən mütləq şəkildə “xoş gördük” və "xudahafiz" ifadələrindən istifadə edin. Sizə bu şəkildə müraciət olunarsa, mütləq qaydada cavab verməlisiniz, əks halda bu, kobudluq və hörmətsizlik kimi qəbul edilə və münaqişəli vəziyyətə səbəb ola bilər.
- Tanımadığınız birindən nəsə soruşmaq isdədikdə, salamlaşma əvəzinə narahat etdiyiniz üçün üzr istəyə bilərsiniz. Məsələn, “Üzr istəyirəm, mənə kömək edə bilərsinizmi?”, “Üzr istəyirəm, aptek harada yerləşir?”, “Üzr istəyirəm, saat neçədir?”.
- Birisi Sizə kömək etdikdən sonra “Sağ olun” və ya “Təşəkkür edirəm!” deyərək ona minnətdarlığınızı bildirməyiniz qəbul olunur.
- Köməyə və ya məsləhətə ehtiyacınız olduqda ictimai yerlərdə istənilən tanımadığınız şəxsə müraciət edə bilərsiniz – Sizə mütləq kömək edəcəklər. Lakin birinin məşğul olduğunu gördükdə (uşaqladırsa, telefonla danışırsa, kitab oxuyursa) – maneçilik törətməmək üçün ona ən son olaraq müraciət etməyiniz daha yaxşıdır.



# Rusiyada həyatın vacib qaydaları

**Rusiyanın dünyəvi və çoxmillətli dövlət olduğunu unutmamalısınız.**



Rusiyada dövlət dini və hər hansı bir dinin qanunlar üzərində üstünlüyü yoxdur, buna görə də din mövzularına toxunarkən diqqətli olun. Rusiya Konstitusiyasını dəyişdirməyə və Rusiya qanunvericiliyinə zidd olaraq şəriət qanunları ilə yaşamağa cəhd göstərməyin.

Rusiya əhalisinin əksəriyyəti pravoslavdır. Lakin ölkəmizdə yaşayan yerli xalqlar arasında müsəlmanlar, buddistlər və digər konfessiyaların nümayəndələri də var, buna görə də Rusiyada olduğunuz müddətdə bütün dinlərə və millətlərə hörmətlə yanaşmalısınız.

Rusiyada hər hansı bir dinə mənsubiyyəti açıq şəkildə nümayiş etdirmək (küçədə dini ayinlər icra etmək, ictimai yerlərdə namaz qılmaq, dua oxumaq və s.) qəbul edilmir. Bunun üçün məbədlər, məscidlər, kilsələr, sinaqoqlar, ibadət otaqları və s. bu kimi xüsusi yerlər mövcuddur.

Rusiyadakı bütün dövlət müəssisələri, xüsusilə də məktəblər və xəstəxanalar dünyəvidir. Rusiyaya uşaqlarınızla gəlmisinizsə və onları təhsil müəssisəsinə yerləşdirməyi planlaşdırırsınızsa, unutmayın ki, məktəb ciddi qaydada müəyyən edilmiş məktəb formasını geyinməyi tələb edə və dərslərdə dini geyimdə iştirak etməyi qadağan edə bilər. Bu, qanunauyğundur!

Rusiyada heyvanların ictimai yerlərdə qurban gətirilməsi qəti şəkildə yolverilməzdir. Buna görə inzibati məsuliyyət nəzərdə tutulur.

Rusiyada odlu və soyuq silah gəzdirmək qadağandır. Bu, həm Sizə, həm də ətrafınızdakılara təhlükə yarada bilər. Məsələn, toy mərasimlərində havaya atəş açmaq ənənəsi də Rusiyada qəbuledilməzdir və məhkəmə icraatına gətirib çıxara bilər.

Həmçinin mədəni və tarixi yerlərdəki abidələrin, mədəni görməli yerlərin, muzeylərin və s. yaxınlığında özünü nümayişkaranə aparmaq olmaz. Rusiyada Böyük Vətən Müharibəsinin xatirəsinə hər zaman xüsusi münasibət göstərilir və bu xatirə diqqətlə qorunuraq nəsildən-nəslə ötürülür. Buna görə də Böyük Vətən Müharibəsi həsr olunmuş abidələrin, o cümlədən Əbədi Məşəlin yanında müvafiq şəkildə və hörmətlə davranılmalıdır və onların təhqir olunması ciddi şəkildə cəzalandırılır.

Rusiyada nasvay və digər narkotik vasitələrin qeyri-tibbi məqsədlərlə yayılması qadağandır. Həkimlər nasvayı təhlükəli narkotik növü kimi qəbul etmişdir, çünki o, asılılıq yaradır, ağciyər, ağız boşluğu, udlaq və mədə xərçənginə gətirib çıxarır. İstifadəsinin nəticələri baş ağrıları, huşun itirilməsi və impotensiyadır.

Asayişin qorunmasının vacib elementi – sakitliyə riayət etməkdir! Rusiyada səs-küy salmağın qadağan olunduğu saatlar qanunvericiliklə müəyyən edilmiş və bu qaydaya riayət edilməməsinə görə cəza nəzərdə tutulmuşdur. Mənzildə səs-küylü işləri saat 09:00-dan 19:00-dək görmək olar, saat 13:00-dan 15:00-dək isə mütləq qaydada fasilə (“sakit saat”) verilməlidir.

# Küçədə davranışın əsasları

*Küçədə/parkda olarkən nələri etmək olmaz:*

- Yolun hərəkət hissəsi ilə (maşınlar hərkət edən yerlə) yerimək – bu, təhlükəsiz deyil;
- Yüksək səslə danışmaq, qışqırmaq, əl-qol hərəkətləri etmək, söyüş söymək (hansı dildə olmasından asılı olmayaraq);
- Telefonun dinamikində və ya videozənglə danışmaq;
- Qulaqcıqlardan istifadə etmədən uca səslə musiqiyə qulaq asmaq / uca səslə videolara baxmaq;
- Küçəyə geyimsiz və ya tam geyinməmiş şəkildə (yalnız şalvarda (şortda) və çəkələkdə) çıxmaq;
- Zibili yerə atmaq (zibil qutusuna və ya zibil qabına deyil), tüpürmək, qoz-fındıq və ya tum qabıqlarını yerə atmaq;
- İzdihamın arasından keçmək, insanların sıx olduğu küçələrdə digər insanları itələyərək qaçmaq (belə yerlərin yanından keçmək daha yaxşıdır);
- Uşaq meydançalarındakı və binaların girişlərinin yaxınlığındakı şəhər əmlakını korlamaq, parklara zərər vurmaq, binaların üzərinə yazmaq və şəkil çəkmək, avtomobillərin şüşələrini sındırmaq, küçələrdəki çiçək ləklərindəki bitkiləri qoparmaq və s.;
- Fizioloji ehtiyacları ödəmək (ayaqyoluna getmək);
- Böyük qruplarla toplaşmaq, mağaza, kafe, yaşayış binaları və s. bu kimi yerlərin girişində və ya çıxışında dayanmaq (oturmaq), həmçinin yoldan ötənlərə qarşı aqressiv davranış nümayiş etdirmək;
- Yoldan ötənləri öz ana dilində müzakirə etmək, digər insanların yanında öz ana dilində pıçıldaşmaq, həmçinin onlara barmaqla işarə etmək. Bu, anlaşılmazlığa səbəb olaraq münaqişəyə gətirib çıxara bilər;



*Hər ölkənin öz mədəni adət-ənənələri və cəmiyyətdə davranış qaydaları vardır və Sizə adi görünən bəzi hallar rusiyalılar üçün qəbulolunmazdır və ya əksinə.*

# İctimai nəqliyyatda davranışın əsasları

*İctimai nəqliyyatda qəti şəkildə qadağandır:*

- *Öz aranızda uca səslə danışmaq, telefonun dinamikində və ya videozənglə danışmaq.*
- *Sürücü ilə danışmaq, onu idarəetmədən və yola nəzarətdən yayındırmaq.*
- *Qulaqcıqlardan istifadə etmədən musiqi dinləmək.*
- *Yerə zibil atmaq, ictimai məkanı çirkləndirmək.*
- *Çirkli və ətrafı kirləndirən geyimdə nəqliyyata minmək.*
- *Yemək yemək və spirtli içkilər içmək.*
- *Tütün çəkmək.*



*Rusiyada ictimai yerlərdə tütün çəkmək və spirtli içki içmək ümumiyyətlə qadağandır. Tütün çəkmək üçün digər insanlara mane olmadan tütün çəkmək üçün ayrılmış xüsusi yerlər vardır. Spirtli içki içmək üçün də kafe, bar, restoranlar kimi xüsusi yerlər vardır. Bunları ictimai yerlərdə etsəniz, ictimai asayişin pozulmasına görə Sizə cərimələnə bilərsiniz! Cərimənin məbləği 500-dən 3000 rus rublunadək təşkil edəcəkdir.*

*Rusiyanın bütün şəhərlərində "Təhlükəsiz şəhər" sistemi fəaliyyət göstərir. Bu sistem hər bir şəhər sakininin təhlükəsizliyini təmin etmək məqsədilə ictimai yerlərdə və yaşayış binalarının həyətlərində daimi müşahidə aparmaqdadır. Bu səbəbdən polisin qaydanı pozmuş şəxsi tapması adətən asan olur.*

# İctimai nəqliyyatda tövsiyə olunan davranışlar:

- *Çantaları və bel çantalarını çıxarmaq və onları nəqliyyatda ətrafdakılara mane olmayacaq şəkildə daşımaq.*
- *Yaşlılara, qocalara, azyaşlı uşaqlara və hamilə qadınlara yer vermək. Nəqliyyatda əyləşmək üçün boş yerlər olduqda əvvəlcə məhz bu sərnişinlər, sonra qadınlar və yalnız bundan sonra kişilər əyləşməlidirlər.*
- *İctimai nəqliyyat vasitəsi dayanarkən əvvəlcə sərnişinlər enir, sonra isə yeni sərnişinlər içəri daxil olurlar. Bu, həm də qapıları olan istənilən məkanlara aiddir: əvvəlcə insanlar çıxmalıdır ki, başqaları da rahat şəkildə içəri daxil ola bilsin;*
- *Növbəti dayanacaqda düşməlisinizsə, son anda başqalarını itələməmək üçün nəqliyyat vasitəsinin çıxışına əvvəlcədən yaxınlaşın. Həmçinin digər sərnişinlərdən növbəti dayanacaqda düşüb-düşməyəcəklərini də soruşa bilərsiniz ki, onları ötüb-ötməyəcəyinizi bilmiş olasınız.*
- *Yıxılmamaq üçün mütləq tutacaqlardan tutmalısınız.*

*Sərnişinlərin öhdəliyi gediş haqqını ödəmək, yəni bilet almaqdır. Biletləri ya konduktor (ictimai nəqliyyat vasitəsinin salonundakı xüsusi şəxs), ya da sürücü satır. Böyük şəhərlərdə sərnişin gediş haqqını nəqliyyatdakı bank terminalı vasitəsilə ödəyə bilər. Gediş haqqını ödəməsəniz, cərimə ödəməli olacaqsınız. Cərimə həmişə biletin dəyərindən daha bahadır.*



# Əks cinslə davranışın əsasları

*Rusiyada qadınlara olduqca nəzakətli münasibət sərgilənir və onlar kişilərlə eyni hüquqlara sahibdir, buna görə də onlarla müvafiq şəkildə rəftar edilməlidir.*

- Rusiyada çoxarvadlılıq və çoxərlilik qadağandır. Kişi və ya qadının yalnız bir qanuni həyat yoldaşı ola bilər.
- Rusiyada nikahlar yalnız kişi və qadın arasında mümkündür. Ölkədə eynicinsli nikahlar qadağandır, LGBT+ hərəkatı isə ekstremizm kimi qəbul olunub.
- Rusiyada yalnız Vətəndaşlıq Vəziyyətli Aktlarının Qeydiyyatı orqanlarında qeydə alınmış izdivac rəsmi nikah hesab edilir. Dini nikahlar rəsmi hesab edilmir.
- Rusiyada saxta nikahlar qadağandır. Təcrübə göstərir ki, xarici vətəndaşlar tərəfindən belə izdivaclar adətən Rusiya Federasiyası vətəndaşlığını almaq kimi qərəzli məqsədlərlə bağlanır. Nikahın saxta olduğu aşkar edildikdə isə qayda pozuntusuna yol vermiş şəxsləri ciddi nəticələr gözləyir və onlar gələcəkdə vətəndaşlıq almaq imkanından məhrum olurlar.
- Rusiyada tanımadığınız qadınlara və kişilərə fiziki şəkildə toxunmaq (əl vurmaq, qucaqlamaq, əllərindən və ya geyimindən tutmaq və s.), uşaqlara həddindən artıq diqqət nümayiş etdirmək qəbul edilmir. Belə hərəkətlər təcavüz kimi qiymətləndirilə bilər. Cinsi xarakterli hərəkətlərə məcbur etmə cərimə və ya azadlıqdan məhrumetmə ilə cəzalandırılır.
- Rusiyada qadınlar ənənəvi olaraq parlaq, bəzən açıq paltarlar geyinirlər ki, bu da qəbahət sayılmır və onların tanışlığa tanışlığa hazır olmaları anlamına gəlmir.
- Bəyəndiyiniz qadın və ya kişinin diqqətini cəlb etməyə çalışaraq səslər çıxarmaq (fit çalmaq, hədələyici tonda danışmaq və s.) olmaz.
- Tanımadığınız qadınlara və kişilərə restorana, evə qonaq getməyi və ya gəzintiyə çıxmağı təklif etmək tövsiyə edilmir.
- Xüsusilə də qadınlara, yaşlılara və uşaqlara qarşı əl-qol atmaq yolverilməzdir.

**Ətrafınızdakı insanlara qarşı hər zaman nəzakətli və mədəni olun! Unutmayın ki, Sizin davranışınıza və xarici görünüşünüzə görə ölkəniz haqda fikir formalaşacaqdır!**

**Подготовлено Министерством региональной политики Оренбургской области**